# Birgə teatr festivalı

**Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının birgə təşkilatçılığı ilə ölkəmizdə "Şuşa İli"nə həsr olunmuş II "4.4 Qısa Tamaşalar Festivalı" keçirilir.**



Bununla bağlı açılış mərasimində Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova bildirib ki, festivalın məqsədi pandemiyadan sonra teatrımıza yeni nəfəs verməkdir: "Xaricdən dəvət olunmuş mütəxəssislər bizim üçün yenilikdir.

Tədbir milli teatr prosesini canlandırmaq, teatr sənətçilərini yeni yaradıcı təşəbbüslərə təşviq etmək məqsədi daşıyır".

Festivalın müsabiqə proqramına daxil edilən 12 ekran işi təşkilat komitəsinə göndərilmiş 20-dən artıq tamaşa arasından seçilib. Bu tamaşaların beşi Bakıda, beşi rayonlarda fəaliyyət göstərən dövlət teatrlarının, ikisi isə müstəqil səhnənin payına düşür.

Bundan əlavə, festivalın proqramında ölkə teatrlarının repertuarlarındakı ən maraqlı əsərlərin sırasından seçilmiş 6 müsabiqədənkənar tamaşa yer alıb. Builki festivala xüsusi rəng qatan özəlliklərdən biri də müsabiqədənkənar proqrama daxil edilmiş xarici tamaşalar da daxil edilib. Belə ki, festival günlərində seyrçilər K.Marcanişvili adına Tbilisi Dövlət Akademik Teatrının Lev Tolstoyun eyniadlı povesti əsasında hazırladığı "Kreyser sonatası" tamaşasına baxa biləcəklər.

Festival çərçivəsində Azərbaycan Respublikasının Xalq artisti, Türkiyə Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "A.P.Çexovun "Ayı" və "Təklif" qısa pyesləri əsasında əməli təhlil üsulunun tətbiqi" mövzusunda treninq keçirib.

**M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 29 noyabr.- S.5.